# MİQRASİYA HÜQUQU

## QANUNSUZ MİQRASİYAYA QARŞI MÜBARİZƏDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

NATƏVAN ZEYNALOVA-SULTANOVA*

**Annotasiya**

*Məqalədə qanunsuz miqrasiya ilə mübarizədə beynəlxalq əməkdaşlığın əhəmiyyətindən bəhs olunur. Bu sahədə beynəlxalq əməkdaşlığın hüquqi tənzimlənməsi məsələləri araşdırlır. Qanunsuz miqrasiya və qanunsuz miqrant anlayışlarına aydınlıq gətirilir. Bu kontekstdə qanunsuz miqrasiya - kompleks xarakterli hüquq pozuntusu olmaqla ölkə sərhədini tərk edən insanlar tərəfindən ölkəyə giriş, orada yaşamaq, ölkədən çıxış və tranzit qaydalarının, habelə əmək fəaliyyəti normalarının pozulması olaraq müəyyən edilir. Bununla bağlı hüquq ədəbiyyatında mövcud olan doktrinal yanaşmalar nəzərdən keçirilir. Müəyyən edilir ki, miqrasiya proseslərinin idarə edilməsində və qanunsuz miqrasiya ilə bağlı təhlükəsizlik tədbirlərinin görülməsində, o cümlədən bu sahədə qanunvericilik fəaliyyətində ilk növbədə beynəlxalq insan hüquqları konsepsiyasına əsaslanılmalıdır. Məqlədə həmçinin qanunsuz miqrasiya ilə mübarizədə beynəlxalq təşkilatların normayaradıcılığı fəaliyyəti araşdırlır. Bu istiqamətdə Beynəlxalq Miqrasiya Təşkilatının fəaliyyəti təhlil edilir. Həmçinin qanunsuz miqrasiya ilə bağlı qəbul edilən beynəlxalq sənədlər müqayisəli təhlil edilir.*

**Açar sözlər:** *qanunsuz miqrasiya, qanunsuz miqrant, miqrasiya, mübarizə, beynəlxalq əməkdaşlıq, beynəlxalq hüquq.*

### *I. Giriş və tədqiqatın aktuallığını müəyyən edən əsas xüsusiyyətlər*

Müasir beynəlxalq hüquqda qanunsuz miqrasiyaya qarşı mübarizə məsələlərinə həm elmi, həm də praktiki müstəvidə xüsusi diqqət yetirilir. Belorusiyalı alimlər prof. L.E.Tixonova və İ.V.Antonenko qeyd edirlər ki, qanunsuz miqrasiya ölkə həyatının bütün sahələrinə, ilk növbədə onun təhlükəsizliyinə və sosial-iqtisadi inkişafına təsir edən mürəkkəb sosial-iqtisadi prosesdir [19]. Finlandiyanın Abo Akademi Universitetinin dosenti M.Kmak, daha çox beynəlxalq insan hüquqları hüququnda miqrantların beynəlxalq və regional sənədlərdə azlıqların müdafiəsi standartlarında mövcud olan boşluqlara diqqət yetirərək yazır ki, qanunsuz miqrantların hüquqlarına onların müdafiəsi nöqteyi-nəzərindən yanaşan mövcud hüquqi praktikanın, qanunvericiliyin, onların sərtliyini və milli dövlət sistemindən asılılığını üzə çıxarmağa imkan verir [9].

Dövlətlər öz ərazilərinə giriş və orada qalma şərtlərini idarə etmək üçün suveren preroqativliyə malik olsalar da, onlar bunu həmişə öz insan hüquqları öhdəliklərinə riayət etməklə həyata keçirməlidirlər. Miqrasiyanın kriminallaşdırılması qeyri-qanuni statusun qarşısını almaq və ya həll etmək üçün göstərilməyib və bir sıra insan hüquqlarının pozulmasına səbəb olan narahatedici bir təcrübədir. İnsanların miqrasiya statusuna görə kriminallaşdırılması həm də miqrantların cinayətkar olması və ya miqrasiyanın

* Doktorant / Bakı Dövlət Universiteti / email: zeynalova.natevan@mail.ru

özünün təhlükə olması barədə yalan və ksenofobik xülyaları gücləndirir [18]. Fərdi rifahın əsas hissəsi fərdlə dövlət arasında düzgün əlaqədir. Bu əlaqə vətəndaşlar və miqrantlar üçün vətəndaşlıq qeydiyyatı və immiqrasiya qanunu vasitəsilə hüquqla müəyyən edilir. Beləliklə, fərd ölkənin konstitusiyasına uyğun olaraq tanınır və hökumətin müdafiəsinə, habelə siyasi iştirak, təhsil, məşğulluq və ya səhiyyə kimi hüquq və xidmətlərə açıq şəkildə çıxış edə bilər. Eyni zamanda, fiziki şəxs müxtəlif hüquqi və inzibati xətalara görə dövlət qarşısında məsuliyyətə cəlb oluna bilər. Hökumət tərəfindən tanınmadan, miqrantlar təmin etdiyi müdafiə olmadan yaşayırlar və şəxsiyyəti təsdiq edən sənədlər olmadan onlar qeyri-formal iqtisadiyyata düşürlər və burada istismar praktikasına məruz qala bilərlər. Eyni zamanda, qeyri-formal iqtisadiyyat hər bir yeni töhfə ilə inkişaf edir və hüquqi dövlətin aktuallığını daha da azaldır [7]. V.A.Smirnovanın fikrincə, bu ilk növbədə, fenomenin kəmiyyət parametrlərinin müəyyən edilməsinin çətinliyi ilə, ikincisi, səbəb olduğu nəticələrin qeyri-müəyyənliyi və müxtəlifliyi ilə, üçüncüsü isə dünya iqtisadiyyatının restrukturizasiyası kontekstində qeyri-qanuni miqrasiya probleminin konseptual şəkildə işlənməməsi ilə bağlıdır [16].

Müasir şəraitdə əhalinin qanuni və qeyri-qanuni miqrasiyası hüquqi və qeyri-qanuni formalarda həm beynəlxalq ictimaiyyət üçün sosial əhəmiyyətli və təhlükəli xarakter almışdır. Əsasən məcburi xarakter daşıyan kütləvi miqrasiya hər bir ölkədə sosial, demoqrafik və kriminal vəziyyəti xeyli gərginləşdirir, millətlərarası və millətlərarası münasibətlərə, dövlət orqanlarının nüfuzuna mənfi təsir göstərir [4]. M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin dosenti İ. A. Aleşkovskiy yazır ki, 20-ci əsrin ortalarından qlobal miqrasiya proseslərinin inkişafının xarakterik meyillərindən biri qanunsuz mmiqrasiyanın miqyasının durmadan artmasıdır. Alimin fikrincə, eyni zamanda qeyri-qanuni immiqrasiyanın qarşısının alınması və onunla mübarizəyə yönəlmiş çoxsaylı tədbirlərin həyata keçirilməsinə baxmayaraq, son onilliklər ərzində dünyada onun miqyası nəinki azalmamış, əksinə, xeyli artmışdır [2]. Y. F. Morqun isə qeyd edir ki, qanunsuz miqrasiya ikinci dərəcəli problem olmaqdan qlobal problemlər kateqoriyasına keçərək dünya birliyi üçün çağırışa çevrilib, onun genişlənməsinin miqyası və mümkün nəticələri beynəlxalq sabitliyə və dövlətlərin davamlı inkişafına ciddi təhlükə yarada bilər [12]. Prof. V.S.Ustinovun fikrincə, müasir beynəlxalq miqrasiya modelinin səmərəsizliyi qeyri-leqal miqrantların sayının artması ilə nəticələnir ki, bu da demək olar ki, hər bir qəbul edən dövlət üçün xarakterikdir. Qeyri-qanuni miqrasiyanı mütəşəkkil cinayətkarlıq amilləri ilə əsaslandırmaq olar və "təkcə cinayət qanunu deyil, həm də milli təhlükəsizliyə təhdid yaradan siyasi fenomen, hakimiyyətin və bütövlükdə ölkənin kriminallaşdırılmasında əsas amildir" [21].

İnkişaf etməkdə olan iqtisadiyyatlardakı tendensiya hökumətlərin insanların miqrasiya statusuna çıxışına daha çox diqqət yetirmələridir. Qeyri-qanuni miqrantlar əsasən miqrasiya statusuna deyil, ölkənin ərazisinə və qeyri-rəsmiliyə giriş axtarırlar.  Bu da öz növbəsində bərabərsizliyin artmasına səbəb

olur. Bəzi insanlar üçün sadəcə olaraq bir ölkəyə daxil olmaq "uğurlu" miqrasiya kimi qəbul edilə bilər, lakin dövlətin və fərdin idarəetmə öhdəlikləri olmadan, bir miqrant bu ölkədə həyatlarının qalan hissəsinə maneələrlə üzləşməli olur. Xüsusilə, uşaqlar kimi daha həssas qrup insan alverinə məruz qala və ya heç kim onların şəxsiyyətini təsdiq edə bilməyən itkin düşə bilər. Bu problemlərin qarşısını almaq üçün əsas fəaliyyət qeyri-qanuni əhalini dövlətə tanıtmağa cəlb edən siyasətləri təkmilləşdirmək və dövlətin sənəd təqdim edə bilməyən insanları qeydiyyata almaq üçün iş metodologiyasına malik olmasıdır. Miqrasiya sistemləri zəiflikləri gücləndirməməli, əksinə miqrantların insan hüquqlarının müdafiəsini təmin etməlidir [7]. Hazırda Beynəlxalq Əmək Təşkilatının məlumatına görə, dünyada beynəlxalq miqrasiya axınının təxminən üçdə birinə nəzarət olunmur. Beynəlxalq miqrasiya axınlarına nəzarət etmək çətindir və qanuni miqrantlara qarşı məhdudlaşdırıcı tədbirlərin tətbiqi adətən yalnız qeyri-qanuni miqrasiyanın miqyasının artması ilə müşayiət olunur [6]. Fikrimizcə, qanusuz miqrasiya ilə mübarizə üzrə beynəlxalq əməkdaşlığın hüquqi tənzimi ilik növbədə transmilli cinayətkərlığın qarşısın alınması və milli təhlükəsizliyə təhdidlərin aradan qaldırılması üçün zəruridir. Digər tərəfdən qanunsuz miqrasiyaya qarşı sərt mübarizə eyni zaman miqrantların insan hüquqlarının müdafiəsini təmin edilməsi kontekstində reallaşdırılmalıdır.

## *II. "Qanunsuz miqrasiya" termininin mahiyyəti*

Qeyd olunan problemin təhlili baxımından ilk növbədə "qanunsuz miqrasiya" və ya "qanunsuz miqrant" termininə aydınlıq gətirilməsini zəruri hesab edirik. Bir sıra mənbələr "qanunsuz miqrasiya" ("*illegal migration*") termininə "nizamsız miqrasiya" ("*irregular migration*"), "sənədsiz miqrasiya" ilə sinonim kimi yanaşır. Məsələn, Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) tərəfindən hazırlanmış "*Glossary on Migration*"da hər iki termin eyni məna kəsb edən anlayışlar kimi izah edilir. Orada "qanunsuz miqrasiya"ya aşağıdakı anlayış və şərh verilir: qanunsuz miqrasiya göndərən, tranzit və qəbul edən ölkələrin tənzimləmə normalarından kənarda baş verən hərəkətdir. Hərçənd, qeyri-qanuni miqrasiyanın aydın və ya hamı tərəfindən qəbul edilmiş tərifi yoxdur. Təyinat ölkələri nöqteyi-nəzərindən bu, ölkəyə qeyri-qanuni giriş, qalmaq və ya işləməkdir. Yəni, miqrantın müəyyən ölkəyə daxil olmaq, yaşamaq və ya işləmək üçün immiqrasiya qaydalarına əsasən tələb olunan lazımi icazə və ya sənədlərinin olmamasıdır. Göndərən ölkənin nöqteyi-nəzərindən qanun pozuntusu, məsələn, şəxsin etibarlı pasport və ya səyahət sənədi olmadan beynəlxalq sərhədi keçməsi və ya ölkəni tərk etmək üçün inzibati tələbləri yerinə yetirməməsidir. Bununla belə, "qanunsuz miqrasiya" termininin istifadəsinin miqrant qaçaqçılığı və insan alveri halları ilə məhdudlaşdırılması tendensiyası mövcuddur [5]. Hesab edirik ki, qeyd olunan tərif olduqca əhatəli və yetkin tərif hesab edilə bilər.

Həmçinin hüquq ədəbiyyatında "qanunsuz miqrasiya" termininə adekvat "gizli miqrasiya", "müntəzəm miqrasiya", "sənədsiz miqrasiya" və s.

terminlərindən də istifadə olunur. Lakin, bütün hallarda hüquqi məna etibarilə bu terminlər arasında nəzərəçarpacaq fərq mövcud deyildir. Polşalı alim M. Okolski "natamam miqrasiya" terminindən də istifadə edir. Müəllif natamam miqrasiyanı qanunsuz miqrasiyanın əsas tərkib elementlərindən biri hesab edərək, onun "tranzit miqrasiya" ilə bilavasitə əlaqəli olduğunu qeyd edir. Onun fikrincə, dünyanın müxtəlif yerlərində insanların axınının fərqli elementlərindən biri və əhəmiyyətli bir hissəsi sənədsiz olan müvəqqəti miqrantların hərəkətidir. Fiziki məsafə baxımından uzaqlıq kütləvi müvəqqəti miqrasiya üçün həmişəkindən daha az maneə kimi görünür. Əslində, ölkələr arasında məskunlaşma miqrasiyası üçün nisbətən məhdud imkanları nəzərə alaraq, miqrantlar getdikcə daha çox diqqəti bir konkret məqsədə yönəltməyə üstünlük verirlər. Yəni, ev sahibi ölkədə pul qazanmaq və onu öz ölkəsində xərcləmək. Bu məqsədi həyata keçirmək üçün miqrantların xaricdə uzun müddət qalmalarına ehtiyac yoxdur. Əksinə, bir çox hallarda turist səyahət sənədinin qüvvədə olduğu müddət ərzində, xüsusən də turistlər üçün vizasız rejim qüvvədə olduqda, buna nail olmaq olar [11]. M. Okolski bunu "natamam miqrasiya" adlandırır. BMT-nin himayəsi altında 1994-cü ildə keçirilən Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransda ölkəyə giriş, qalma və ya iqtisadi fəaliyyət üçün müəyyən edilmiş tələblərə cavab verməyən şəxslərə münasibətdə "sənədsiz şəxslər" terminindən, 1999-cu ildə Banqkokda keçirilən Beynəlxalq Miqrasiya Simpoziumunda isə "qeyri-qanuni vəziyyətdə olan şəxslər" terminindən istifadə edilməsi təklif edilmişdir [2, c.131]. Fikrimizcə, "qeyri-qanuni vəziyyətdə olan şəxslər" ifadəsi müasir insan hüquqları konsepsiyası nöqteyi-nəzərindən uğurlu termin hesab edilmir.

Ümumiyyətlə, "qanuni miqrant" və "qanunsuz miqrant" ifadələri həm elmi, həm də praktiki mahiyyyət kəsb edən terminlərdir. ABŞ-ın Vaşinqton Dövlət Sosial və Səhiyyə Xidmətləri Departamenti qanuni və qanunsuz miqrant arasındakı fərqə aşağıdakı kimi izah verir: Qanuni immiqrantlar ABŞ-a qanun əsasında hüquqi yolla qəbul edilmiş xarici əsilli şəxslərdir. Qeyri-qanuni əcnəbilər də adlandırılan sənədsiz immiqrantlar etibarlı vizası və ya digər immiqrasiya sənədləri olmayan xarici əsilli insanlardır. Çünki, onlar ABŞ-a yoxlamasız daxil olumuş, müvəqqəti vizalarının icazəsi bitdikdən sonra daha uzun müddət ölkədə qalmışlar və ya qəbul olunduqları şərtləri bu və ya digər şəkildə pozmuşlar [22].

"Qeyri-qanuni miqrasiya" və "qanunsuz miqrant" anlayışlarına post-sovet məkanında da ortaya qoyulan mövqelər elmi-praktiki baxımdan əhəmiyyətli hesab edilə bilər. MDB Şurasının qərarı ilə təsdiq edilmiş "Qeyri-qanuni miqrasiya" və "qanunsuz miqrant" anlayışları Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin qeyri-qanuni miqrasiya və qeyri-qanuni miqrant Konsepsiyasına qarşı mübarizədə Əməkdaşlıq Konsepsiyasında öz əksini tapıb. MDB dövlət başçılarının 16 sentyabr 2004-cü il tarixli qərarı ilə qeyri-qanuni miqrasiya MDB-yə üzv dövlətlərin vətəndaşlarının, üçüncü dövlətlərin və vətəndaşlığı olmayan şəxslərin qanunvericiliyə zidd olaraq MDB üzvü olan dövlətin ərazisində hərəkəti, orada olması, bu dövlətin ərazisindən keçən hərəkətidir.

Qeyri-leqal miqrant isə MDB iştirakçısı olan dövlətin, üçüncü dövlətin vətəndaşı və ya MDB üzvü olan dövlətin ərazisinə giriş, çıxış, qalma və ya tranzit keçmə qaydalarını pozmuş vətəndaşlığı olmayan şəxsdir [4].

Türkiyə DİN-in Köç İdarəsi Başkanlığı da qanunsuz miqrasiyaya (düzənsiz köç) sistemli şərh vermişdir. Qurunun rəsmi saytında qeyd edilir ki, qanunsuz miqrasiya (düzənsiz köç) ölkəyə qeyri-qanuni yollarla daxil olmaq, ölkədə qeyri-qanuni qalmaq və ya qanuni yolla daxil olub qanuni müddət ərzində çıxmamaq deməkdir. Oradav qeyd edilir ki, qeyri-qanuni miqrasiya mənbə və tranzit ölkələr baxımından ayrıca qiymətləndirilməli olan məsələdir. Qanunsuz miqrasiyaya təyinat ölkələri üçün, ölkələrinə qeyri-qanuni yollarla daxil olan və ya qanuni yolla gələn və qanuni müddət ərzində tərk etməyən şəxslər aid edilir. Mənşə ölkələri üçün ölkə sərhədlərini keçən və tələb olunan çıxış prosedurlarına əməl etməyən şəxslər daxildir. Tranzit ölkələr üçün isə mənşə ölkələrindən hədəf ölkəyə çatmaq üçün bir ölkəyə qanuni və ya qeyri-qanuni yollarla daxil olan və həmin ölkədən tranzit ölkə kimi istifadə edərək ölkə sərhədini tərk edən insanlardır [13].

İ.A.Aleşkovskiy bu terminə belə anlayış verir: qeyri-qanuni miqrasiya insanların getdiyi ölkənin çıxış qaydalarının, gəliş ölkəsinə giriş və ya olma, yaşayış, habelə üçüncü ölkədən tranzit keçmə və ya gəliş ölkəsində əmək fəaliyyəti qaydalarının pozulması ilə müşayiət olunan inzibati sərhədlərdən keçməsidir [2, c.131]. Göründüyü kimi, qanunsuz miqrasiya kompleks xarakterli hüquq pozuntusu olub, buraya ölkə sərhədini tərk edən insanlar tərəfindən həm ölkəyə giriş, yaşamaq, çıxış və tranzit qaydalarının, həm də əmək fəaliyyəti normalarının pozulması ilə xarakterizə olunur.

A.V.Topilin qeyri-qanuni miqrasiyanı bir ölkənin vətəndaşlarının qeyri-leqal əmək fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə digər ölkəyə daxil olması kimi başa düşür. O aşağıdakı qrupları qeyri-leqal miqrantlar kimi təsnif edir: birinci qrup - ölkəyə qeyri-qanuni yollarla, sənədlər olmadan, saxta, saxta sənədlərdən istifadə etməklə daxil olan şəxslər, habelə bəyan edilmiş giriş məqsədləri onların həqiqi niyyətlərinə uyğun gəlməyən əcnəbilər; ikinci qrup - ölkədə təhsil almış və ya əmək müqaviləsi ilə işləyən, təhsilini və ya işini başa vurduqdan sonra vətənə qayıtmaq istəməyən xarici vətəndaşlar; üçüncü qrup xarici ölkələrdən birinə orada iş və ya qaçqın statusu əldə etmək üçün səfər etmək niyyətində olan tranzit miqrantlardır; dördüncü qrup sığınacaq verməkdən imtina etdikdən sonra ölkəni tərk etməkdən yayınan qaçqınlardır [20, c.44].

Hazırda qeyri-leqal immiqrasiya müasir dünyanın bir çox ölkələrində sosial-iqtisadi və siyasi proseslərə mühüm təsir göstərən sabit və genişmiqyaslı hadisəyə çevrilmişdir. Sosioloji sorğulara görə, qeyri-qanuni immiqrasiya əksər inkişaf etmiş ölkələrin sakinlərini narahat edən ən aktual problemlərdən biridir. Miqrasiya proseslərinin qeyri-qanuni komponentinin genişlənməsi dövlətin milli təhlükəsizliyinin təmin edilməsində ciddi disbalans yaradır. Bütün bunlar dövlət tərəfindən qeyri-qanuni immiqrasiya problemlərinə marağın artmasına səbəb

olur və qeyri-leqal immiqrasiyaya qarşı mübarizə sahəsində tədbirlərin daha da gücləndirilməsinə təkan verir [2, c. 130].

*III. Qanunsuz miqrasiyaya qarşı mübarizə*

Elmi işin məqsədləri baxımından maraqlı elmi müzakirə predmeti olan məsələlərdən biri də qanunsuz miqrasiyanın kriminillaşdırılması və ya qanunsuz miqrasiyaya qarşı azadlıqdan məhrumetmə cəzasının tətbiqi və həbslərin icra edilməsidir. BMT-nin Özbaşına Həbslər üzrə İşçi Qrupu tərəfindən qəbul edilimiş “Miqrantların azadlıqdan məhrum edilməsinə dair 5 saylı Tövsiyə”nin “Sığınacaq axtarmaq və ondan istifadə etmək hüququ və miqrasiyanın cinayət hesab edilməməsi” adlı 2-ci maddəsində qeyd edilir ki, “miqrantlar tərəfindən ölkəyə qeyri-qanuni giriş və orada qalma cinayət kimi qəbul edilməməlidir və buna görə də həmişə qeyri-qanuni miqrasiyanın kriminallaşdırılması Dövlətlərin öz ərazilərinin qorunmasında və qeyri-qanuni miqrasiya axınının tənzimlənməsində qanuni maraqlarını üstələyəcəkdir. Miqrantlar kriminallaşdırılmamalı və ya cinayətkar kimi rəftar edilməməli və ya yalnız milli və ya ictimai təhlükəsizlik və/və ya sağlamlıq nöqteyi-nəzərindən baxılmamalıdır” [15]. Özbaşına həbsin qadağan edilməsi beynəlxalq adət hüququn mütləq və geri çəkilməyən normasıdır. Qeyri-qanuni miqrasiyanın kriminallaşdırılması immiqrasiya həbsindən istifadə üçün qanuni əsaslandırma deyil və çox vaxt özbaşına həbsə səbəb olur. İmmiqrasiyaya nəzarət üçün icraat zamanı həbs özbaşına deyil, fərdi hallar nəzərə alınmaqla ağlabatan, zəruri və mütənasib olaraq əsaslandırılmalı və vaxt keçdikcə yenidən qiymətləndirilməlidir [18].

Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi Komitəsinin 4 (2017) və Uşaq Hüquqları Komitəsinin İnsan hüquqları ilə bağlı dövlətin öhdəlikləri haqqında № 23 (2017) Birgə Ümumi Şərhinin 6-cı maddəsində qeyd edilir: “Komitələr tərəfindən immiqrasiya həbsi dedikdə, uşağın və ya valideynlərinin miqrasiya statusu ilə bağlı səbəblərə görə uşağın azadlıqdan məhrum edildiyi hər hansı şərait başa düşülür. “Miqrasiya statusu ilə bağlı səbəblər” dedikdə, şəxsin miqrasiya və ya yaşayış yeri statusu, yaxud qeyri-qanuni giriş və ya qalma ilə bağlı olub-olmamasından asılı olmayn səbəblər başa düşülür [8]. Uşaqlar özlərinin və ya valideynlərinin miqrasiya statusuna görə heç vaxt saxlanılmamalıdırlar. Uşaqların onların və ya valideynlərinin miqrasiya statusu əsasında saxlanması uşağın ən yüksək maraqları prinsipinə ziddir, uşaq hüquqlarının açıq şəkildə pozulmasıdır. Miqrant uşaqlara qarşı qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar təşkil edə bilər. Prinsip olaraq, buna görə də, miqrasiya nəzarəti məqsədləri üçün həbs tədricən ləğv edilməlidir və dövlətlər miqrantların immiqrasiya statusu həll olunarkən onların ləyaqəti və insan hüquqlarına görə azadlıqdan məhrum etmə ilə bağlı olmayan, icma əsaslı alternativlərə üstünlük verməlidirlər [18].

Qeyd edilən sənədlərin hər birinin əsas məqsədi bütün immiqrasiya həbslərinə son qoymağa çalışmaq və uşaqların və ya onların valideynlərinin miqrasiya statusuna görə saxlanmasını qadağan etməkdir [2, s. 130].

Ümumilikdə qeyd etmək lazımdır ki, qanunsuz miqrasiyanın kriminallaşdırılmamsı, immiqrasiya həbsindən yalnız son çarə kimi istifadə ediməsi və bu zaman alternativ cəzaların tətbiqinə üstünlük verilməsi bütün beynəlxalq sənədlərin əsas tələblərindən biri kimi çıxış edir.

Qloballaşma dövründə beynəlxalq hərəkatların güclənməsi qeyri-qanuni miqrasiyanın inkişafına geniş imkanlar yaradır. Ümumiyyətlə, praktikada qeyri-qanuni miqrasiyaya qarşı tədbirlər beş kateqoriyaya bölünür: 1) sərhədlərin, xüsusən "yüksək texnologiyaların" tətbiqi ilə möhkəmləndirilməsi. Buraya müvafiq viza siyasətinin həyata keçirilməsi, o cümlədən skan və şəxsi identifikasiya texnologiyalarından (barmaq izi, məlumat bazalarının yaradılması və s.) istifadə etməklə sərhəd nəzarətinin gücləndirilməsi; qeyri-qanuni miqrantların viza rejiminin sərtləşdirilməsi, hava və dəniz limanlarında immiqrasiya nəzarəti əməkdaşlarının yerləşdirilməsi, qeyri-qanuni miqrantları ölkəyə gətirən aviaşirkətlərə və gəmiçilik şirkətlərinə qarşı sanksiyaların tətbiqi aiddir; 2) qeyri-qanuni miqrasiya və insan alverinin təşkilatçılarına qarşı sanksiyaların sərtləşdirilməsi yolu ilə insan alveri və istismarı ilə bağlı tədbirlər. BMT-nin İnsan Alverinə dair Konvensiyalarına uyğun olaraq bu cinayətlər milli cinayət qanunvericiliyi çərçivəsində əksər dövlətlər tərəfindən kriminallaşdırılmışdır; 3) xarici vətəndaşların qalma müddətinə nəzarətin gücləndirilməsi: əmək bazarına nəzarət və ölkədə qeyri-qanuni qalan işəgötürənlərə, vasitəçilərə və miqrantlara qarşı inzibati, cinayət və mülki sanksiyaların tətbiqi; saxtakarlığın və ya saxtakarlığın qarşısının alınması məqsədilə immiqrantlara verilən sənədlərin ölkə daxilində mühafizə səviyyəsinin artırılması; yaşayış icazəsi almaq üçün qondarma nikahların qarşısının alınması məqsədilə əcnəbilərlə bağlanmış nikahların daha ciddi yoxlanılması; qeyri-qanuni miqrasiya probleminin həllinə yerli icmaların cəlb edilməsi; 4) qeyri-qanuni miqrasiya ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlıq, o cümlədən beynəlxalq müqavilələr, xüsusən də sərhədlərin birgə mühafizəsi, mütəşəkkil cinayətkarlıqla mübarizə, readmissiya və s., mənşə ölkələri ilə əməkdaşlıq. Bu, ümumi sərhəd nəzarətinə (miqrasiya vəziyyəti haqqında məlumatların ölkələr arasında paylanması) aiddir, əməkçi miqrantların işə qəbulu üzrə agentliklərlə əlaqələr; miqrantların inteqrasiyası üçün tədbirlər; 5) qeyri-qanuni immiqrantların deportasiyası prosedurlarının sərtləşdirilməsi, ölkədən çıxarılma və nizamlanma proqramları vasitəsilə qeyri-qanuni statusa malik şəxslərin sayına nəzarət. Deportasiya qeyri-leqal miqrantlara qarşı əsas tədbirlərdən biridir. Lakin bu tədbir bəzən əks təsir göstərir. Deportasiya təhlükəsi qeyri-qanuni miqrantları daha ehtiyatla gizlənməyə məcbur edir. Bu da onları işəgötürənlərdən və ya qaçaqmalçılardan daha çox asılı edir. Deportasiyanın kütləvi şəkildə həyata keçirilməsi ümumiyyətlə çətin hesab olunur. Bir sıra ölkələrdə (Belçika, Yunanıstan, İspaniya, İtaliya, Portuqaliya, ABŞ, Fransa) qeyri-qanuni miqrasiyaya qarşı mübarizə tədbiri kimi miqrantların vəziyyətinin nizama salınması (leqallaşdırılması, amnistiya) prosedurundan istifadə edilmişdir [6].

Azərbaycan Respublikası (AR) ilə Avropa İttifaqı (Aİ) arasında bağlanan readmissiya sazişində də qeyri-qanuni immiqrasiyaya qarşı daha səmərəli mübarizə aparmaq məqsədi ilə öz aralarında əməkdaşlığı gücləndirmək niyyəti ilə, AR-in və ya Aİ üzv dövlətlərinin birinin ərazisinə daxil olmaq, orada qalmaq və ya yaşamaqla bağlı şərtlərinə əməl etməyən və ya bu şərtləri artıq yerinə yetirməyən şəxslərin müəyyən edilməsinin, təhlükəsiz və nizamlı şəkildə qayıtmalarının qarşılılıq əsasında tez və səmərəli prosedurlarını qurmaq və əməkdaşlıq ruhunda bu cür şəxslərin tranzitini asanlaşdırmaq [10] məsələsri öz əksini tapmışdır. Preambula hissəsində əksini tapan digər bir vacib məqam bu sazişin tərəflərin beynəlxalq hüquqdan, xüsusilə Qaçqınların Statusu haqqında 28 iyul 1951-ci il tarixli Konvensiyadan və ona 31 yanvar 1967-ci il tarixli əlavə Protokoldan irəli gələn hüquq və öhdəliklərini məhdudlaşdırmadığının vurğulanmasıdır.

Qeyri-qanuni miqrasiya qanuni miqrasiyaya müəyyən qədər dolayı olsa da, mənfi təsir göstərir. Əmək hüquqlarının və sosial təminatların təmin edilməsində daha az tələbkar olan qeyri-leqal miqrantlar əmək xərclərini minimuma endirməkdə maraqlı olan potensial işəgötürənlər üçün bir növ "dempinq" faktorudur. Eyni zamanda, "qeyri-qanuni mühacirlərin" iqtisadi, hüquqi, sosial və humanitar zəifliyi sosial gərginliyin artmasına və ümumilikdə cinayətkarlığın vəziyyətinin pisləşməsinə səbəb olan ciddi amildir. Yuxarıda göstərilən tendensiyalar, xüsusən də sosial-mədəni ("sivilizasiya") komponentlə gücləndikdə, gizli sosial gərginlik fazasından asanlıqla tamhüquqlu etnosiyasi münaqişəyə keçə bilər. Son onillikdə Böyük Britaniyada, Almaniyada, Fransada və s. hadisələr zamanı "könüllü məcburi" miqrasiyaların (deportasiyalar, etnik təmizləmə və s.) acınacaqlı təcrübəsi göstərir ki, miqrasiya siyasətinin "həddini aşması" beynəlxalq xarakter daşıyan genişmiqyaslı nəticələrə səbəb olur [14].

Hazırda bütün dünyada qeyri-leqal miqrasiya ilə bağlı hüquqi problemlər çox aktualdır. Qeyd edilən problemlərin həlli və ona qarşı mübarizə sahəsində müxtəlif dövlətlərdə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində fəal iş aparılır. Eyni zamanda, qeyri qanuni miqrasiya mübarizə sahəsində dövlətlərin təcrübəsi və dövlətlərarası əməkdaşlıq məsələri də olduqca vacibdir. Belə ki, qanunsuz miqrasiyanın müxtəlif növləri, o cümlədən əmək, köçürmə və s. ilə mübarizədə xarici ölkələrin siyasət və qanunvericilik təcrübəsinin araşdırılmasını bu kontekstdə daha faydalı hesab edirik.

Qanunsuz miqrasiya ilə mübarizə məsələləri AR-nın müxtəlif dövlətlərlə bağladığı ikitərəfli sazişlərin də əsas predmetini təşkil edir. Məsələn, 14 noyabr 2019-cu il tarixli AR Hökuməti ilə Qazaxıstan Respublikasının Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Sazişdə göstərilir ki, qanunsuz miqrasiya kanalları, tərəflərin dövlətlərinin ərazilərində fəaliyyət göstərən və qanunsuz miqrasiyanın təşkilində və həyata keçirilməsində iştirak edən hüquqi və fiziki şəxslər barədə, giriş vizalarının və digər sənədlərin alınması üsulları və onların qanunsuz miqrasiya məqsədləri üçün istifadəsi, qanunsuz miqrasiyaya qarşı mübarizənin təşkili, qanunsuz miqrasiyanın

qarşısının alınmasına yönəldilmiş təcrübə və tədbirlər barədə informasiya və məlumat mübadiləsini həyata keçirirlər [1].

S.Y.Əliyeva qeyd edir ki, görülən əhəmiyyətli fəaliyyətin məntiqi davamı olaraq, yaxın gələcəkdə dövlətimizdə qeyri-qanuni miqrasiya da daxil olmaqla, miqrasiya sahəsində münasibətlərin səmərəli tənzimlənməsi və mövcud olan problemlərin həll edilməsi istiqamətində də beynəlxalq sferada mühüm fəaliyyətlər həyata keçiriləcəkdir. Bura dövlətimizin qeyd edilən sahədə beynəlxalq mexanizmlərlə sıx əməkdaşlığı, regional və ikitərəfli beynəlxalq müqavilələrin imzalanması, mühüm beynəlxalq tədbirlərin keçirilməsində yaxından iştirak və s. kimi məsələlər daxil edilə bilər [3]. Nəzərə alsaq ki, ölkəmiz dünyada və regionda alternativi olmayan multikulturalizm ənənələrinə malik bir dövlətdir, eyni zamanda, son dövrlər çoxsaylı miqrasiya axınları ilə bağlı müvafiq qanunvericilik tədbirləri də görülmüşdür ki, bunlara növbəti paraqraflarda ətraflı toxunacağıq.

Eyni zamanda, qanunsuz miqrasiya qloballaşma, inteqrasiya, multikulturalizm kimi müasir tendensiyalar fonunda nəzərdən keçirilməlidir. Xüsusilə "qloballaşma" və "təhlükəsizlik" ictimai həyatın bütün sferalarına və ölçülərinə "nüfuz edən" dünya inkişafının əsas paradiqmaları kimi son vaxtlar özünü möhkəm şəkildə təsdiq etmişdir. Dünyada mövcud miqrasiya vəziyyəti son dərəcə ziddiyyətli və əsasən xaotik şəkildə inkişaf edir. Qloballaşma şəraitində dövlətlər təkcə kapitalın, malların, informasiyanın deyil, həm də insanların hərəkəti üzərində nəzarəti itirirlər. Bu səbəbdən qloballaşmanın xüsusi "sosial-iqtisadi törəməsi" olan genişmiqyaslı beynəlxalq miqrasiya həm milli, həm də beynəlxalq səviyyədə təhlükəsizliyə çağırışdır [14]. Qeyd olunmalıdır ki, qeyri-qanuni miqrasiya bir fenomen kimi cəmiyyətin bir çox sahələrinə təsir göstərir. Siyasi sahədə ölkənin təhlükəsizliyinə, onun geosiyasi maraqlarına və beynəlxalq nüfuzuna birbaşa təhdid kimi çıxış edir; iqtisadi sahədə - iqtisadi qanunvericilikdən kənar inkişaf edən kölgə iqtisadiyyatının genişlənməsinə, vəsaitlərin əhəmiyyətli hissəsinin maliyyə dövriyyəsindən çıxarılmasına, əmək bazarında vəziyyətin gərginləşməsinə və müəssisə bvə işçilərinin oradan köçürülməsi; sosial sahədə - sosial gərginliyin artmasına gətirib çıxarır ki, bu da birlikdə ölkədə kriminal vəziyyəti xeyli çətinləşdirir [16]. Bu səbəbdən də fikrimizcə, qanunsuz miqrasiya ilə səmərləri mübarizə bütövlükdə cəmiyyətin siyasi, iqtisadi-sosial həyatına mənfi təsir etməməli və kriminogen mühiti kəskinləşdirməməlidir.

## *IV. Nəticə*

Beləliklə, qanunsuz miqrasiyaya qarşı mübarizənin təhlili ilə bağlı aşağıdakı nəticələri qeyd edə bilərik: 1) qanunsuz miqrasiya ilə mübarizə üzrə beynəlxalq əməkdaşlığın hüquqi tənzimi, bir tərəfdən, transmilli cinayətkarlığın qarşısının alınması və milli təhlükəsizliyə təhdidlərin aradan qaldırılması üçün zəruridir. Digər tərəfdən, qanunsuz miqrasiyaya qarşı sərt mübarizə, eyni zamanda miqrantların insan hüquqlarının müdafiəsini təmin edilməsi

kontekstində reallaşdırılmalıdır; 2) "qanunsuz miqrasiya" termininə aşağıdakı məzmunda anlayış verilməsi məqbuldur: Qanunsuz miqrasiya - kompleks xarakterli hüquq pozuntusu olmaqla ölkə sərhədini tərk edən insanlar tərəfindən ölkəyə giriş, orada yaşamaq, ölkədən çıxış və tranzit qaydalarının, habelə əmək fəaliyyəti normalarının pozulmasıdır; 3) qanunsuz miqrasiyanın kriminallaşdırılmamsı, immiqrasiya həbsindən yalnız son çarə kimi istifadə edilməsi və bu zaman alternativ cəzaların tətbiqinə üstünlük verilməsi bütün beynəlxalq sənədlərin əsas tələblərindən biri kimi çıxış edir; 4) dövlətlərin qanunsuz miqrasiya ilə bağlı siyasəti, təcrübəsi və qanunvericiliyi özünün sərt təbiəti ilə diqqəti cəlb edir. Belə ki, qanunsuz miqrasiyanın kriminallaşması, sığınacaq hüququnun məhdudlaşdırılması, məhdud məhkəmə nəzarəti, bu dövlətlərin genişmiqyaslı yeni həbs səlahiyyətləri, sənədsiz immiqrantlar üçün sərt cəzaların müəyyən edilməsi, deportasiyanın lüzumsuz tətbiqi və s. immiqrasiya qanunlarının sərtləşdirilməsinə səbəb olan əsas hüquqi nüanslardır; 5) hesab edirik ki, ölkələr miqrasiya proseslərinin idarə edilməsində və qanunsuz miqrasiya ilə bağlı təhlükəsizlik tədbirləri görülərkən, bu sahədə qanunvericilikdə dəyişikliklər edərkən, ilk növbədə beynəlxalq insan hüquqları konsepsiyasından çıxış etməli və diskriminasiyaya yol vermədən insanların sərbəst hərəkət azadlığına xələl gətirməməlidir.

## ƏDƏBİYYAT (REFERENCES):

1. Agreement between the Government of the Republic of Azerbaijan and the Government of the Republic of Kazakhstan on cooperation in the field of migration (in Azerbaijani / *Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikasının Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş*). URL: https://e-qanun.az/framework/43606 (last access: 27.07.24).
2. Aleshkovsky I. A. Illegal migration as a phenomenon of the global world, Century of globalization 2014 • No. 2, p. 130. 129–136 (in Russian / *Алешковский И.А. Нелегальная миграция как феномен глобального мира, Век глобализации 2014 • № 2, с.130. 129–136*).
3. Aliyeva S.Y. Migration problems and protection of the rights of persons with disabilities in the era of globalization (in Azerbaijani / *Əliyeva S.Y. Qloballaşma dövründə miqrasiya problemləri və əlilliyi olan şəxslərin hüquqlarinin müdafiəsi*). URL: https://genprosecutor.gov.az/az/post/7385 (last access: 29.07.24).
4. Decision of the Council of Heads of State of the CIS "On the Concept of Cooperation of the Member States of the Commonwealth of Independent States in Combating Illegal Migration" of September 16, 2004 (in Russian / *Решение Совета глав государств СНГ «О Концепции сотрудни-чества государств — участников*

*Содружества Независимых Государств в противодействии незаконной миграции» от 16 сентября 2004 г*).

5. Glossary on Migration, International Organization for Migration (IOM), Geneva 2004.
URL: https://publications.iom.int/system/files/pdf/iml_1_en.pdf (last access: 27.07.24).
6. Illegal Migration: World Experience and Its Application in the Republic of Belarus (in Russian / *Нелегальная миграция: мировой опыт и его применение в Республике Беларусь*).
URL: https://eee-region.ru/article/3202/ (last access: 30.07.24).
7. Irregular migration and identity: more than just documents.
URL: https://rosanjose.iom.int/en/blogs/irregular-migration-and-identity-more-just-documents (last access: 02.07.24).
8. Joint general comment No. 4 (2017) of the Committee on the Protection of the Rights of All Migrant Workers and Members of Their Families and No. 23 (2017) of the Committee on the Rights of the Child on State obligations regarding the human rights of children in the context of international migration in countries of origin, transit, destination and return
URL: https://docstore.ohchr.org/SelfServices/FilesHandler.ashx?enc=6QkG1d%2fPPRiCAqhKb7yhsrMuIHhdD50s6dX7ewCBgoc3aRFSDe0ukyIgphiFFs8N%2fk1uf0mPUJgdK2vXMEFXwBUJydRTZ4IlLcOtT9GDUqemWeCc2%2bl%2f6gJkKBzFDWgi (last access: 02.07.24).
9. Kmak M. The right to have rights of undocumented migrants: inadequacy and rigidity of legal categories of migrants and minorities in international law of human rights. The International Journal of Human Rights. 2020, 24(8), 1201–1217.
URL: https://doi.org/10.1080/13642987.2020.1716740 (last access: 27.07.24).
10. Law on the ratification of the Agreement between the Republic of Azerbaijan and the European Union on the readmission of persons residing without authorisation, 30 may 2014 (in Azerbaijani / *Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqın-da" Sazişin təsdiq edilməsi barədə Qanun*).
URL: http://e-qanun.az/framework/27934 (last access: 27.07.24).
11. Marek O. Incomplete Migration: A New Form of Mobility in Central and Eastern Europe. The Case of Polish and Ukrainian Migrants.
12. Morgun Y.F. Illegal migration (in Russian / *Моргун Ю.Ф. Нелегальная миграция*).
URL: https://evolutio.info/ru/journal-menu/2004-1/nilegal-migratiya-2004 (last access: 23.07.24).

13. On the Irregular Migration (in Turkish / *Düzensiz Göç Hakkında*). URL: https://www.goc.gov.tr/duzensiz-goc-hakkinda (last access: 23.07.24).
14. Poltorakov A.Y. Migration as a security challenge: national and international aspects (in Russian / *Полтораков А.Ю. Миграция как вызов безопасности: национальные и международные аспек-ты*). URL: https://www.researchgate.net/publication/281625889_Migracia_kak_vyzov_bezopasnosti_nacionalnye_i_mezdunarodnye_aspekty/link/55f05db208ae199d47c20b6f/download?_tp=eyJjb250ZXh0Ijp7ImZpcnN0UGFnZSI6InB1YmxpY2F0aW9uIiwicGFnZSI6InB1YmxpY2F0aW9uIn19 (last access: 25.07.24).
15. Revised Deliberation No. 5 on deprivation of liberty of migrants. URL: https://www.ohchr.org/sites/default/files/Documents/Issues/Detention/RevisedDeliberation_AdvanceEditedVersion.pdf (last access: 21.07.24).
16. Smirnova V.A. Illegal migration as a threat to national security of the Russian Federation // Migration law. 2009. No. 1 (in Russian / *Смирнова В.А. Нелегальная миграция как угроза нацио-нальной безопасности РФ // Миграционное право. 2009. №1*).
17. The concepts of illegal migration and unlawful migration in the regulatory legal acts of the Russian Federation, Bulletin of Chelyabinsk State University. 2011. No. 19(234). Law. Issue 28. P. 50–53 (in Russian / *Понятия незаконной миграции и нелегальной миграции в нормативных пра-вовых актах Российской Федерации, Вестник Челябинского государственного университета. 2011. № 19(234). Право. Вып. 28. С. 50–53*).
18. The criminalisation of irregular migration. URL: https://www.ohchr.org/sites/default/files/Documents/Issues/Migration/GlobalCompactMigration/CriminalisationIrregularImmigration.pdf (last access: 20.07.24).
19. Tikhonova L. E., Antonenko I. V. Illegal migration: world experience and its application in the Republic of Belarus// Regional Economics and Management: electronic scientific journal. 1999, No. 4(32), 26-45 (in Russian / *Тихонова Л.Е., Антоненко И. В. Нелегальная миграция: мировой опыт и его применение в Республике Беларусь// Региональная экономика и управление: электронный научный журнал. 1999, № 4(32), 26-45*).
20. Topilin, A. V. Illegal migration: scale and socio-economic consequences // Use of foreign labor in Russia (materials of the round table). Moscow, 2005 (in Russian / *Топилин, А. В. Нелегальная миг-рация: масштаб и социально-экономические последствия //*

*Использование иностранной рабо-чей силы в России (материалы круглого стола). М., 2005*).
21. Ustinov V. S. Organized crime. Criminology: textbook. St. Petersburg, 2005 (in Russian / *Ус-тинов В. С. Организованная преступность. Криминология: учебник. СПб., 2005*).
22. What's the difference between legal and undocumented immigrants? URL: https://www.dshs.wa.gov/faq/what%E2%80%99s-difference-between-legal-and-undocumented-immigrants (last access: 23.07.24).

**International cooperation in the field of fight against illegal migration**

NATAVAN ZEYNALOVA-SULTANOVA*

**Abstract**

*The article discusses the importance of international cooperation in the field of combating illegal migration. Issues of legal regulation of international cooperation in this area are examined. The concepts of illegal migration and illegal migrant are defined. In this context, illegal migration is defined as a violation of the rules of entry into the country, residence in it, exit from the country and transit, as well as labor standards by persons leaving the country's border, being an offense of a complex nature. In this regard, doctrinal approaches available in legal literature are considered. It has been established that the management of migration processes and the adoption of security measures in connection with illegal migration, including legislative activities in this area, should primarily be guided by the international concept of human rights. The review of norm-making activity of international organizations in combating illegal migration is carried out. The activities of the international organization for migration are analyzed in this direction. Also, a comparative analysis of international documents adopted in this area is conducted.*

**Keywords:** *Illegal migration, illegal migrant, migration, fight, international cooperation, international law.*

**Международное сотрудничество в сфере борьбы с незаконной миграцией**

НАТАВАН ЗЕЙНАЛОВА-СУЛТАНОВА**

**Резюме**

*В статье говорится о значении международного сотрудничества в сфере борьбы с незаконной миграцией. Исследуются вопросы правового регулирования международного сотрудничества в этой области. Дается понятие незаконной миграции и незаконного мигранта. В данном контексте незаконная миграция определяется как нарушение правил въезда в страну, проживания в ней, выезда из страны и транзита, а также норм трудовой деятельности лицами, покидающими границу страны, являясь правонарушением комплексного характера. В связи с этим рассматриваются доктринальные подходы, имеющиеся в юридической литературе. Установлено, что в управлении миграционными процессами и принятии мер безопасности в связи с незаконной миграцией, в том числе в законодательной деятельности в этой области, в первую очередь следует руководствоваться международной концепцией прав человека. В статье также изучается*

* PhD candidate / Baku State University / email: zeynalova.natevan@mail.ru

** Докторант / Бакинский Государственный Университет / email: zeynalova.natevan@mail.ru

*нормотворческая деятельность международных организаций в сфере борьбы с незаконной миграцией. В этом направлении анализируется деятельность международной организации по миграции. Также проводится сравнительный анализ международных документов, принятых в данной области.*

**Ключевые слова:** *Незаконная миграция, незаконный мигрант, миграция, борьба, международное сотрудничество, международное право.*

**Redaksiyaya daxil olma tarixi: 01.08.2024**
**Çapa qəbul: 24.12.2024**